Xalq qəzeti .- 2022.- 20 sentyabr.

# Azərbaycan postmüharibə dövründə də sülh siyasətinə sadiqdir

***Azərbaycan İkinci Qarabağ müharibəsindən ötən iki il ərzində sülhə sadiqliyini, sülh sazişinin imzalanmasına maraqlı olduğunu əməli fəaliyyətində daim nümayiş etdirib. Vətən savaşında ordumuz tərəfindən tamamilə məğlub edilən işğalçı Ermənistan 2020-ci il noyabrın 10-da kapitulyasiya aktını imzalamağa məcbur olandan sonra Prezident İlham Əliyev ordusu və iqtisadiyyatı acınacaqlı duruma düşən, əhalisi acınacaqlı şəraitdə yaşayan bu ölkəyə vəziyyətdən çıxmağın yeganə yolunu sülh müqaviləsinin bağlanmasında, bölgədə əmin-amanlığın yaradılmasında gördüyünü dəfələrlə xatırladıb, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının təhlükəsizlik, sabitlik və sülh şəraitində inkişafı məsələlərinə xüsusi önəm verib.***



Təəssüf ki, Ermənistan ikinci Qarabağ müharibəsindən sonra üzərinə götürdüyü öhdəliklərin icrasına laqeydlik göstərib, qarşısına qoyulan vəzifələri yerinə yetirməkdən müxtəlif bəhanələrlə yayınıb, Zəngəzur dəhlizinin reallaşdırılmasını ləngidib, ən başlıcası isə məğlub ordusunun qalıqlarını nəinki Qarabağdan çıxarıb, əksinə, bu ərazidə daha da möhkəmlədib, yeri gəldikcə isə silahlı quldurlara ölkəmizə qarşı təxribatlar törətmək, əraziləri minalamaq tapşırığı verib. Nəticədə işğalçı "dəmir yumruq"la üzləşib.

Yeri gəlmişkən, işğalçı bu il avqustun sonlarından başlayaraq, demək olar ki, hər gün atəşkəsi pozub, mövqelərimizi müxtəlif çaplı silahlardan atəşə tutub. Sentyabrın 12-də isə genişmiqyaslı hücumla Azərbaycanla Ermənistanın şərti sərhədinin Laçın, Kəlbəcər və Zəngilan rayonları istiqamətlərində



gərginlik törədib, mövcud vəziyyəti öz xeyrinə dəyişdirməyə cəhd göstərib.

Beləliklə, Ermənistan bir daha sülh istəmədiyini sübut edib. Eyni zamanda, xarici təsir dairələrinin əlində oyuncaq olduğunu və həmin güclərin sifarişi ilə bölgədə sülhyaratma prosesinə əngəl törətməyə çalışdığını təsdiqləyib. Bu zaman isə, təəssüf ki, Azərbaycanın ötən əsrin 90-cı illərinin ölkəsi olmadığını, Silahlı Qüvvələrimizin hazırda dünyanın 50 ən güclü ordusu sırasında qərarlaşdığını unudub və təxribatlarının qarşılığında respublikamızın özünümüdafiə hüququndan yararlanaraq, "dəmir yumruğunu" göstərəcəyini yaddan çıxarıb.

Azərbaycan hər zaman işğalçı ölkənin ardıcıl törətdiyi təxribatların əksinə olaraq, qarşı tərəflə dinc yanaşı yaşamağa konstruktiv yanaşıb, daim səsi diqqəti Cənubi Qafqazda postmüharibə vəziyyətinə yönəldərək, sülhə, sabitliyə və proqnozlaşdırılmaya sadiqliyi bəyan edib. Dövlətimizin başçısı regionda hər hansı yeni müharibə risklərinin minimuma endirilməsinə nail olmağa xüsusi əhəmiyyət yetirib. Bu, ölkə rəhbərinin nüfuzlu dövlət başçıları, beynəlxalq təşkilatların rəhbərləri, o cümlədən, Aİ Şurasının Prezidenti Şarl Mişel ilə söhbətlərində də öz aydın ifadəsini tapıb.

Ümumiyyətlə, Azərbaycan İkinci Qarabağ müharibəsindən sonra regionda sabitliyin, əmin-amanlığın təmin olunması üçün Ermənistanla münasibətlərin normallaşması, sülh sazişinin bağlanması istiqamətində davamlı çağırışlar edib, təşəbbüslər göstərib və bölgədə hər hansı yeni müharibə risklərinin minimuma endirilməsi üçün nüfuzlu dövlət başçıları, beynəlxalq təşkilatların rəhbərləri ilə təmaslarını genişləndirib. Eyni zamanda, 2020-ci il noyabrın 10-da imzalanan üçtərəfli Bəyanatla üzərinə düşən öhdəliklərin, qarşıya qoyulan vəzifələrin yerinə yetirilməsini diqqət mərkəzində saxlayıb.

Ölkəmiz Vətən savaşından ötən iki il ərzində sülhyaratma mübarizəsini mürəkkəb geostrateji şəraitdə, beynəlxalq münasibətlər sistemində nəzərə çarpan sürətli və ciddi dəyişikliklər fonunda aparıb. Başqa sözlə, Azərbaycan regionda normallaşma siyasətinin icrasına beynəlxalq hüququn təməl prinsiplərini təşkil edən ərazi bütövlüyü, suverenlik və müstəqillik, bir-birilərinin daxili işlərinə qarışmamaq, habelə digər prinsiplərə bütün ölkələr tərəfindən eyni məsuliyyətlə yanaşılması, münaqişələrin və ədalətsizliklərin qarşısının alınmasına maraq göstərilməsi şəraitində cəhd göstərib.

Dünyada özünü qabarıq büruzə verən ikili standartlar, ədalətsizliklər fonunda, Ermənistanın havadarlarının əmin-amanlığa əngəl törətmək kimi çətinliklər şəraitində Azərbaycanın sülhə, sabitliyə sadiqliyi bir sıra nüfuzlu ölkələr, beynəlxalq təşkilatlar, xüsusilə Avropa İttifaqı (Aİ) tərəfindən yüksək səviyyədə dəstəklənib.

Xatırladaq ki, Aİ dünyada mövcud olan ən böyük siyasi və iqtisadi mərkəzlərdən biridir, qərəzsiz və bitərəfdir, Azərbaycan və Ermənistan tərəfindən etimad göstərilir. Bu nüfuzlu qurumun məqsədi, ilk növbədə, Azərbaycan–Ermənistan münasibətlərinin normallaşdırılmasıdır.

Onu da qeyd edək ki, Azərbaycan regionda sülh tərəfdarı, iqtisadi güc mərkəzi, eyni zamanda, Cənubi Qafqazda beynəlxalq layihələrin təşəbbüskarı olan ölkə kimi tanındığından Avropa İttifaqı üçün vacib, etibarlı və perspektivli tərəfdaşdır. Bu amil respublikamızla münasibətlərin davamlı inkişafını şərtləndirir. Digər tərəfdən, İkinci Qarabağ müharibəsində Azərbaycanın parlaq qələbə əldə etməsi ilə geosiyasi reallıq yaranması adı çəkilən təşkilatla bu əməkdaşlığın dərinləşdirilməsi zərurətini qarşıya çıxarıb.

Hazırda təkcə Avropa İttifaqı deyil, həm də nüfuzlu ölkələr və digər beynəlxalq siyasi mərkəzlər Cənubi Qafqazda Azərbaycanın ədalətli zəfəri fonunda geosiyasi reallığı təqdir edir və Ermənistanla sülh sazişinin imzalanmasını önəmli məsələ kimi dəyərləndirir. Çünki bölgədə sülh və əmin-amanlığın bərqərar olması Azərbaycan və onun qonşularının mənafeyinə fayda gətirməklə bərabər, həm də bu coğrafiyada kommunikasiya bağlantılarının bərpası sayəsində region dövlətlərinin dünya iqtisadiyyatına inteqrasiyasını gerçəkləşdirir, son nəticədə isə xalqların sosial şəraitinin yaxşılaşmasına müsbət təsir göstərir. Əlbəttə, bu mənada, Avropa İttifaqının rəsmi Bakının təklif və təşəbbüslərini yüksək dəyərləndirməsi və bunu dəstəkləməsi aydın başa düşülür.

Yeri gəlmişkən, dövlətimizin başçısının Aİ Şurasının prezidenti Şarl Mişellə davamlı görüşləri və apardığı danışıqlar nəticəsində postmüharibə dövründə Brüssel sülh gündəliyi yaranıb. İlk üçtərəfli görüş 2021-ci il dekabrın 14-də keçirilib, bununla da Prezident İlham Əliyev və Şarl Mişel tərəfindən Brüssel sülh gündəliyinin əsası qoyulub. Bunun davamı olaraq tərəflər arasında intensiv təmaslar aparılıb, telefon danışıqları gerçəkləşib. Lakin ötən müddət ərzində Ermənistan yuxarıda vurğuladığımız kimi, verdiyi vədə, üzərinə götürdüyü öhdəliklərə əməl etməyib, sülhyaratma prosesini müxtəlif vasitələrlə ləngitməyə çalışıb. Bütün bunlar işğalçı ölkənin mahiyyətinin dəyişməz olduğunu, münaqişənin dinc vasitələrlə tənzimlənməsinə maraq göstərmədiyini, qəsbkarlıq siyasətini davam etdirməkdə israrlılığını sübuta yetirib.

Azərbaycan Vətən müharibəsində ədalətin bərpasından sonra sülhyaratma prosesində qətiyyətli mövqeyi ilə daim diqqət çəkib. İşğalçının xarici havadarları, onların bəzilərinin bizə hədə-qorxu gəlmələri də ölkəmizi bu müqəddəs fəaliyyətdən çəkindirə bilməyib. Çünki Azərbaycan haqlı olduğu üçün güclü iradə göstərərək, haqq yolundan çəkinməyib. Respublikamızın siyasi və iqtisadi müstəqilliyi isə mübarizəmizi daha da gücləndirib.

Burada diqqəti bir tarixi məqama yönəltmək istərdik. Ermənistanın Azərbaycan ərazilərini işğalı ilə başlayan münaqişənin nizamlanması üçün 1992-ci il mart ayının 24-də təsis olunan ATƏT-in Minsk qrupu fəaliyyətinin 29 ili ərzində məsələnin həllinə yox, dondurulmasına çalışıb və bununla da uzun bir zaman ərzində aparılan danışıqlar nəticəsiz qalıb. Həm işğalçıya, həm də işğala məruz qalan tərəfə eyni münasibət bəslənilib və beynəlxalq qətnamələr kağız üzərində saxlanılıb. Məsuliyyətli ölkə olaraq Azərbaycan daim beynəlxalq hüquqa sadiqliyini nümayiş etdirərək, münaqişənin danışıqlar vasitəsilə həllinə çalışıb. Digər mötəbər beynəlxalq təşkilat olan BMT də işğalçı Ermənistana təzyiq göstərməkdə acizlik nümayiş etdirib, tərəfləri sülhə çağıran bəyanatlarla kifayətlənib. Beləliklə, BMT Təhlükəsizlik Şurasının Ermənistan silahlı qüvvələrinin işğal altındakı Azərbaycan ərazilərindən dərhal çıxarılmasını tələb edən 4 qətnaməsi 27 il icra olunmayıb.

Hazırda isə Ermənistan tarixi reallığı dəyişmək, yenidən həmin dövrün ab-havasına dönmək üçün, necə deyərlər, dəridən-qabıqdan çıxır, müxtəlif bəhanələrlə sülh sazişini imzalamaqdan yayınır, əsassız "status" iddiaları ilə çıxış edir, ATƏT-in Minsk qrupunun fəaliyyətini canlandırmağa cəhdlər göstərir.

Azərbaycan İkinci Qarabağ müharibəsini tarixi zəfərlə başa vuraraq hazırda regionda yeni reallıqlar yaradıb. Eyni zamanda, Vətən savaşından əvvəlki dövrdə ölkəmizə Ermənistanın qələbəsi gerçəkliyini qəbul etdirməyə çağıran bəzi beynəlxalq təşkilatlar və dövlətlər tərəfindən də bu yeni reallıqla barışılıb. Bir sözlə, artıq beynəlxalq aləmdə Azərbaycanın yaratdığı yeni reallığı çoxları qəbul edib. Bu, vəziyyəti, əlbəttə, Azərbaycan liderinin apardığı uğurlu xarici siyasət şərtləndirib. Dövlətimizin başçısı bununla bağlı çıxışlarının birində deyib: "Biz öz konstitusion hüquqlarımız çərçivəsində, BMT-nin Nizamnaməsi, Helsinki Yekun Aktı çərçivəsində yeni reallıq yaratmışıq və hamı bu reallıqla hesablaşmalıdır. Bu, asan məsələ deyildi… Bu, daimi iş idi. Nəticədə bu gün beynəlxalq təşkilatlar – BMT, Qoşulmama Hərəkatı, ATƏT, Avropa İttifaqı, MDB tərəfindən bu reallıq tamamilə qəbul edilib. Biz bunu həm formal mənada, həm də xalis ünsiyyətdə görürük. Üstəlik, mən beynəlxalq strukturların çoxsaylı rəhbərləri və dövlət başçıları ilə əlaqədə olarkən müşahidə edirəm, indi biz öz haqq işimizə qat-qat artıq dəstək görürük".

Azərbaycan bu gün qlobal öhdəliklərə, humanizm dəyərlərinə sadiqlik nümayiş etdirir, regionda sülh və təhlükəsizliyin gerçəkləşdirilməsi istiqamətində çevik, konstruktiv siyasət həyata keçirir. Bütün bu fəaliyyət isə nüfuzlu beynəlxalq qurumlar tərəfindən də dəstəklənir. Ümumiyyətlə, ölkəmizin sədrlik etdiyi Qoşulmama Hərəkatı, İslam Əməkdaşlıq Təşkilatı və bütün digər aparıcı beynəlxalq təşkilatların bəyanatlarında da mövqeyimiz müsbət dəyərləndirilir, postmünaqişə reallıqlarına yüksək qiymət verilir.

Ölkə rəhbəri bütün çıxışlarında Azərbaycanın üzərində dayandığı beş prinsipin beynəlxalq hüququn normalarını, səmərəli beynəlxalq davranışı əks etdirdiyini xatırladaraq, onların istənilən ölkələr arasında dövlətlərarası münasibətlərin təməl prinsipləri olduğunu vurğulayır. Dövlətimizin başçısı fikirlərinə qarşılıqlı şəkildə ərazi bütövlüyünün və beynəlxalq sərhədlərin toxunulmazlığının tanınması, həmçinin sərhədlərin delimitasiyası ilə Qafqaza sülh gələcəyini əlavə edir: "Bu, Azərbaycanın istəyidir. Azərbaycan Cənubi Qafqazın üç ölkəsi arasında fəal əməkdaşlıq üçün potensialın mövcudluğunu görür. Bu, eyni zamanda, Cənubi Qafqaz ölkələr ilə bərabər, daha geniş region üçün mühüm önəm daşıyır. Lakin bütün bu məsələləri ehtiyatla, həssaslıqla nəzərdən keçirmək və vaxtında həll etmək zəruridir".

Azərbaycan bu gün də qətiyyətli mövqeyini davam etdirir, prinsipial yanaşma ortaya qoyur və strateji məqsədlərinə doğru qətiyyətlə addımlayır. Prosesin gedişi regionda bütün dövlətlərin maraqlarına tam cavab verir, bölgə xalqlarına rifah və inkişaf vəd edir. Bu isə Cənubi Qafqaz regionunda uzunmüddətli sülh və təhlükəsizlik, qarşılıqlı faydalı əməkdaşlıq mühitini təmin etmək üçün mühüm əhəmiyyət daşıyır.

***Vaqif BAYRAMOV,***
***"Xalq qəzeti"***